**Macarıstanın Mərkəzi Statistika İdarəsində “Kənd təsərrüfatı registri” mövzusunda təşkil edilmiş təlim səfəri haqqında**




Dövlət Statistika Komitəsinin Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsinin müdiri Rəşad Bayramov və Statistika işlərinin əlaqələndirilməsi şöbəsi müdirinin müavini Toğrul Əcəlov cari ilin 13-14 aprel tarixlərində Macarıstanın Mərkəzi Statistika İdarəsində “Kənd təsərrüfatı registri” mövzusunda təşkil edilmiş təlim səfərində iştirak etmişlər.

Keçirilmiş təlimin əsas məqsədi kənd təsərrüfatı siyahıyaalınmasının nəticələrindən istifadə etməklə kənd təsərrüfatı istehsalçılarının registrlərinin yaradılması və bu registrlərin aktuallaşması mexanizminin müəyyən edilməsi məqsədilə, Macarıstan Milli Statistika İdarəsinin təcrübəsini öyrənməkdən ibarət olmuşdur.

Tədbirdə qarşı tərəfdən Kənd təsərrüfatı və ekologiya statistikası, biznes registr və informasiya texnologiyaları üzrə mütəxəssislər də iştirak edirdi.

Səfər çərçivəsində məlumat mübadiləsi əsasən kənd təsərrüfatının siyahıyaalınmasının keçirilməsi və registrlərin yaradılması istiqamətində aparıldı.

Tədbirin ilk günündə Macarıstanda keçirilmiş kənd təsərrüfatının siyahıyaalınması barədə məlumat verildi. Bildirildi ki, 2010-cu ildə keçirilmiş sonuncu siyahıyaalma Avropa Parlamentinin 1166/2008 nömrəli Nizamnaməsinə və Macarıstan hökumətinin müvafiq qərarı əsasında baş tutmuşdur. Pilot siyahıyaalma isə 2009-cu ildə 139 fərdi təsərrüfatda və 36 kənd təsərrüfatı müəssisəsində həyata keçirilmişdir. Əsas siyahıyaalma iki mərhələdə keçirilmiş və birinci mərhələdə ünvan registrində qeydə alınmış 2.5 milyon təsərrüfat meyarlara görə sorğu edilmişdir.

Biznes registri haqqında təqdimatda registrin tənzimləyici hüquqi əsası, statistik vahidlərin kodlaşdırılması sistemi, iqtisadi müəssisələrin qeydiyyatı prosesi, registrin məlumat mənbəyi, registrin saxlanması və aparılması, müayinə çərçivəsinin yaradılması, registrin demoqrafiyası və kənd təsərrüfatı vahidlərinin biznes registrdə işlənməsi haqqında ümumi məlumat verildi. Biznes registrin məlumat bazasının “Oracle”-da, platformasının isə “HP-UX” əsasında hazırlandığı bildirildi.

Təlim səfərinin gedişində nümayəndələrimiz Dövlət Statistika Komitəsinin strukturu, fəaliyyəti, fəaliyyətinin hüquqi əsasları, vəzifələri, dövlət proqramları, keyfiyyətin idarə olunması sistemi, kənd təsərrüfatı statistikası haqqında, eyni zamanda Biznes registrinin yaradılması, aparılması və aktuallaşdırılmasına dair məlumat vermişlər.